Quş qripinə qarşı keçirilmiş epizootoloji monitorinqlərin nəticələri haqqında

Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 16 fevral tarixli 1320 nömrəli Sərəncamı ilə yaradılmış Azərbaycan Respublikasında quş qripi xəstəliyinin qarşısının alınması və bu sahədə bütün qurumların birgə fəaliyyətinin əlaqələndirilməsi üzrə Dövlət Komissiyasının sədri tərəfindən 2023-cü il 19 iyul tarixində təsdiq edilmiş "Quş qripi xəstəliyinin qarşısının alınması üzrə dövlət qurumlarının və digər aidiyyəti subyektlərin əlaqəli Fəaliyyət Planı"na uyğun olaraq, noyabr ayından növbəti ilin may ayına qədər ayda bir dəfə respublika ərazisində quş qripi xəstəliyinə qarşı epizootoloji monitorinqlər keçirilməlidir. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"yə uyğun olaraq, epizootoloji monitorinqlərin təşkili Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra - Agentlik) səlahiyyətlərinə daxildir.

Bu baxımdan, aidiyyəti qurumların mütəxəssislərinin iştirakı ilə Fəaliyyət Planına əsasən, respublika ərazisində 2024-cü ilin 18-22 noyabr, 16-20 dekabr, 2025-ci ilin 13-17 yanvar, 10-14 fevral, 3-7 mart, 7-11 aprel, 19-23 may tarixlərində (Naxçıvan Muxtar Respublikası daxil) sözügedən monitorinqlər keçirilmişdir.

Tədbirlər epizootik risk əsasında müəyyən olunmuş Dövlət Təbiət Yasaqlıqlarının, ovçuluq təsərrüfatlarının və milli parkların su-bataqlıq, dənizsahili zonalar və digər ərazilərini əhatə etməklə, habelə su anbarları və çaysahili ərazilərdə ümumi müşahidələr aparılmaqla vəhşi quşlara klinik baxış keçirilmiş, xəstəlik törədicisinin aşkar edilməsi məqsədilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən ovlanmış 438 baş müxtəlif növ vəhşi quşdan diaqnostik material nümunələri götürülmüşdür. Bundan əlavə, fəaliyyət göstərən 206 sənaye əsaslı müxtəlif həcmli quşçuluq müəssisəsində və quş kəsim məntəqələrində 2060 baş, habelə 121 rayonun (şəhər) 1480 ailə təsərrüfatından isə ümumilikdə müxtəlif növ 4549 baş ev quşundan laborator müayinə üçün qan və yaxma nümunələri götürülmüşdür. Monitorinq çərçivəsində təbiət ərazilərinə, müxtəlif növ quşçuluq müəssisələrinə, ailə təsərrüfatlarına, su hövzələri, parklar və zooparklara, dekorativ quşların saxlandığı obyektlərə, diri quş satışının həyata keçirildiyi bazarlara ümumi baxış keçirilmiş, bununla yanaşı, baytarlıq norma və qaydalarına əməl olunması üçün məqsədyönlü maarifləndirmə-təbliğat tədbirləri görülmüş, toplanmış epizootoloji və götürülmüş nümunələr barədə məlumatlar "Epicollect5" proqramına daxil edilmişdir. Bundan başqa, Agentliyin rəsmi internet səhifəsində və sosial media hesablarında quş qripi xəstəliyi barədə maarifləndirici çap materialları ictimaiyyətin diqqətinə çatdırılması məqsədilə yerləşdirilmiş, əhalinin sıx məskunlaşdığı ərazilərdəki məlumat lövhələrində posterlərin asılması, vətəndaşlar və sahibkarlar arasında bukletlərin paylanması təmin edilmişdir.

Monitorinqlər müddətində vəhşi və ev quşlarından götürülmüş nümunələr müvafiq laboratoriyalarda müayinə edilmişdir. Müayinələrin və ümumi epizootoloji müşahidələrin təhlili nəticəsində quş qripi xəstəliyinin törədicisinə və xəstəliyə şübhəli klinik əlamətləri olan quşa rast gəlinməmişdir. Qeyd etmək istərdik ki, ev quşlarından götürülmüş diaqnostik nümunələr Nyukasl xəstəliyinə görə də müayinə edilmiş və yoluxmaya şübhəli hal aşkar edilməmişdir.